**AYGÜN HACIYEVA,**
*Azərbaycan Milli Kitabxanasının şöbə müdiri,*
*AMEA-nın doktorantı,*
*aygun_haciyeva_87@mail.ru*

# İNNOVATİV KOMMUNİKASİYALARIN YARADILMASI İNNOVATİV FƏALİYYƏTƏ DƏSTƏK ÜSULU KİMİ

**Xülasə:** Məruzədə *yeniliklərin həyata keçirilməsinə yönəlmiş innovativ kommunikasiyaların əhəmiyyətindən bəhs edilir, innovasiya subyektləri arasında əlaqələrin qurulmasının vacibliyi önə çəkilir.*
**Açar sözlər:** *innovativ fəaliyyət, innovativ kommunikasiyalar, kitabxana, yeniliklərin tətbiqi*

İnnovativ kommunikasiyalar yeniliklərin reallaşdırılmasına istiqamətlənmiş fəaliyyətdir. İnnovativ kommunikasiyaların məğzi 3 əsas hissədə əks olunur?

- Kommunikasiyalar fəaliyyət sahəsi kimi
- Kommunikasiyaların texnoloji aspekti
- Rəhbərin ideya və fəaliyyətinin reallaşdırılması

Yeni texnika insan fəaliyyətinin vasitəsi və məqsədidir. Elmi ideyaların reallaşdırılması üçün innovativ kommunikasiyaların texnoloji aspektini təşkil edən müxtəlif üsullar, predmetlərin seçilməsi və subyektiv struktur tətbiq edilir. Səmərəli kommunikasiyalar yaradıcılıq məhsulu kimi xüsusi innovativ mədəniyyəti formalaşdırır.

Elmi ideyanın praktik istifadəyə tətbiqi müvafiq əlaqələr və münasibətlər sisteminin həyata keçirilməsini tələb edir və innovasiya subyektləri arasında iqtisadi əlaqələrin məcmusudur. Bu cür sistem inteqrativ xüsusiyyətə malikdir.

İnnovativ prosesin təşkilinin təcrübədə 3 əsas forması ayırd edillir: inzibati-iqtisadi; proqram-məqsədli; təşəbbüskar.

Kitabxana işində yeniliklər bazarı hələ tam formalaşmamışdır və ixtisaslaşmış innovativ təşkilatlar (innovativ layihələrin reallaşdırılması üzrə işləri həyata keçirənləri birləşdirən strukturlar) mövcud deyil, innovativ fəaliyyətin iştirakçıları arasında innovativ əlaqə və kommunikasiyalar sistemi inkişaf etməmiş, fandreyzinqin imkanları az istifadə olnumuşdur. İnnovasiyaların inkişafı üçün kitabxanalara innovativ fəaliyyət infrastrukturu, innovasiyaların reallaşdırılmasına hökumət və qeyri-hökumət dəstəyi lazımdır.

İnnovativ infrastrukturun gələcək inkişafı və innovativ fəaliyyətin iştirakçıları arasında səmərəli innovativ kommunikasiyaların qurulması müasir kitabxa-

naların innovativ fəaliyyətinin inkişafı şərtləri hesab edilir. Bu isə imkan verir:

- Elmi tədqiqatlara, tətbiqi işlərə (yeniliklərin işlənməsi) və innovasiyaların reallaşdırılmasına resurslar cəlb etmək və yığmaq
- Daimi olaraq istehsalçılar tapmaq və İnnovativ təşkilatlarda yeniliklərin işlənməsini sifariş etmək, onların məsləhət yönümlü dəstəklərindən və öyrədici proqramlarından, müstəqil ekspertlərin xidmətlərindən istifadə etmək
- İnnovativ işləri koordinasiya etmək və innovativ məsələləri birgə həll etmək
- İnnovativ layihələrin birgə həyata keçirilməsi üzrə beynəlxalq əlaqələri inkişaf etdirmək
- Kitabxanaların nailiyyətləri barədə cəmiyyətə mütəmadi olaraq informasiya vermək, son məhsulları tanıtmaq, işlərin yayılmasını təmin etmək.

İnnovatikada əvvəldən sonadək innovativ prosesin vahid nzəriyyəsinin qurulması cəhdləri daimi olaraq nəzərə alınır.

İnnovativ kommunikasiyalar sistemində motivasiya mexanizminə - innovasiya subyektlərinin motivlərinin məcmusuna xüsusi yer verilir. İnnovasiyaların elmi, yaradıcı, investisiya və marketinq fəaliyyətini özündə birləşdirən motivasiya mexanizmini rəhbərliyin innovativ motivlərinin inteqrasiya edilmiş sistemi şəklində təsəvvür etmək mümkündür.

**Ədəbiyyat**


1. Бровко, С.Л. Инновационные коммуникации в инновационном социуме // Менеджмент инноваций.- 2013.- № 2.- С.94-104
2. Инновационные коммуникации. Режим доступа: http: // stud 24.ru/ innovation/innovacionnye-kommunikacii/51257-177625-page1. html
3. Качанова, Е.Ю. Инновационная деятельность библиотек: Теория, организация, методика: автор. дисс. на соис. док. пед. наук. Режим доступа: http://www.dissercat.com/content/innovatsionnaya-deyatelnost-bibliotek-teoriya-organizatsiya-metodika
4. Система инновационных коммуникаций. Режим доступа: https: // lib.ink/ekonomicheskaya-teoriya_826/194-sistema-innovatsionnyih-52095. html
5. Innovation Communication. Коммуникации в сфере инноваций. Режим доступа: http://innovation.jinr.ru/imgs-docs/Book%20Innovation%20Communication.pdf


## Создание инновационных коммуникаций как поддержка инновационной деятельности

**Резюме:** *В докладе основное внимание уделяется важности инновационных коммуникаций, направленных на инновации, подчеркивая важность установления связей между субъектами инноваций.*

**Ключевые слова:** *инновационная деятельность, инновационная коммуникация, библиотека, применение инноваций*